## FOLKLORŞÜNASLIQ

**UOT 378**
https://doi.org/10.59849/2311-8482.2025.4.70

**GÜNEL CƏNNƏTOVA ***

# YUXU XRONOTOPUNUN QƏHRƏMANLIQ EPOSUNDAKI TƏHKİYƏ FORMALAŞDIRICI ROLU

*Məqalədə yuxu xronotopunun qəhrəmanlıq eposlarındakı funksional və poetik rolu xronotop nəzəriyyəsi kontekstində araşdırılır. Yuxu motivinin mifoloji, simvolik və psixoloji qatlarda necə işlədiyi, təhkiyənin strukturuna necə təsir etdiyi elmi şəkildə təhlil olunur. Müəllif yuxunu yalnız bir epizod və ya süjet vasitəsi kimi deyil, qəhrəmanın daxili transformasiyasını, şüuraltı emosional vəziyyətini və ictimai-mifik yaddaşla əlaqəsini ifadə edən çoxlaylı xronotop kimi dəyərləndirir. "Kitabi-Dədə Qorqud", "Maaday-Qara" və "Alpamış" kimi klassik türk eposlarında yuxu motivinin fərqli tipləri — kabus, xəbərdarlıq, arzu, qrotesk, öncəgörmə kimi alt formaları misallar üzərində təhlil olunur. Çevrilmə, liminallıq, partisipasiya, qrotesklik kimi anlayışlarla yuxu xronotopu arasında semantik əlaqələr izah edilir. Folklorun arxaik qatlarında yuxuların ibtidai şüur, totemik düşüncə və psixomental transformasiya ilə bağlılığı da göstərilir. Məqalə sübut edir ki, yuxu xronotopu qəhrəmanlıq eposunda yalnız süjet elementi deyil, həm də milli mentallığın və kollektiv yaddaşın poetik modelidir.*

***Açar sözlər:*** *yuxu xronotopu, qəhrəmanlıq eposu, mifoloji strukturlar, çevrilmə motivi, şüuraltı təfəkkür*

## Giriş

Yuxu xronotopu özünün ikili reallığı ilə, yəni real (epos) zaman və məkanı ilə yuxudakı zaman-məkanın əlaqələndirməsini təmin etməsilə maraqlı xronotop formatını təcəssüm etdirir. Yuxunun vacib missiyalarından birinin xəbər ötürücülüyü, olanlardan-keçənlərdən və ya gözlənilən hadisələrdən xəbərvermə olduğuna diqqət çəkən R.Əliyev də yuxunun keçid, aralıq forma, zaman kəsimi olduğunu dilə gətirir, habelə yuxunun bir vasitəçilik missiyasını gerçəkləşdirməklə ölüm-dirim, inkarnasiya – reinkarnasiya arasında get-gəllərin irrasional, irreal zəmində yaşanmasına imkan verdiyini də qeyd edir (Əliyev, 2021: 58).

"*Qazanı küçicik ölüm tutdı, uyudu. Məgər xanım, Oğuz bəgləri yedi gün uyurdı. Anunçun "küçicik ölüm" derlərdi*".

Analitik psixologiyanın banisi K.Q.Yunqun Tanrının öz bəndələri ilə, əsas etibarı ilə yuxalar, yuxugörmələr vasitəçiliyi ilə rabitə yaratması haqqında məşhur kəlamını xatırladan folklorşünas alim R.Qafarlı da, məhz yuxuların, yuxuyozmalarının qədim insanın ibtidai görüşlərinin formalaşçasında müstəsna rol oynadığını vurğulamış və bu əsasda həmin primitiv, erkən təsəvvürlərin bünövrəsində mifoloji anlayış və təsəvvürlərin nəşət tapdığını qeyd etmişdi (Qafarlı, 2011: 157).

Yuxu xronotopunun və ya oneyrik motivin tipologiyasını təqdim edən C.Spendel de Varda "yuxu-kabus", "yuxu-arzu", "yuxu-xəbərdarlıq", "yuxu-öncəgörmə", "yuxu-qrotesk" kimi altnövlərin mövcudluğuna diqqət çəkmişdi. "Kitabi-Dədə Qorqud", "Alpamış", "Maaday-Qara" dastanlarında qeyd olunan yuxu xronotopunun fərqli janr növlərinin, demək olar ki, hamısına təsadüf edilir. Maraqlıdır ki, hətta bəzi hallarda biz, bəzi yuxu xronotopik motivlərinin altnövlərinin kontominasiyasını da izləyirik. Məsələn, Kögüdey-Mergenin gördüyü kabus-yuxu, onun gözünü açınca baş vermiş hadisələrin fonunda, eyni zamanda həm də xəbərdarlıq, öncəgörmə yuxusu kimi dəyərləndirilə bilər. Belə ki, ata-anasını basırdıqdan sonra yetmiş gün dərd-ələm içşində olan Kögüdey-Mergen nəhayət ki, yuxuya gedərkən kabus görür. Qəhrəmanın yuxusunda Erlik xanın qızı və Kara Kula xanın arvadı olan Qara-Taadinin onun yanına gəlib, həm Kögüdey-Mergenin, həm də onun həyat yoldaşı Altın-Küskünün yeraltı dünyasının hokmdarı olan atası tərəfindən hüzuruna çağrıldığını görür. Qəzəb və dəhşət içində yuxusundan hövlnak oyanan Kögüdey-Mergen öz yurtasından – çadırından qəzəb və heyrət içində özünü çölə atdıqda ona tərəf gələn Qara-Taadini görür. Bununla da kabus-yuxunun eyni zamanda öncəgörmə-yuxu xronotopik motivi ilə kəsişməsi mümkün olur.

Arzu-yuxu xronotopik motivinin yer aldığı digər süjet xəttini də elə həmin "Maaday-Qara" dastanında izləyirik. Kögüdey-Mərgən altı gün oyanmadan yatır və dərin yuxusunun yeddinci

günündə içində yaşatdığı arzuların reallaşdığı ideal Altay eli ortamını, ata-anasının sağlılığını, ulusunun xoş güzəranını canlandıran arzu motivli yuxu görür.

*"Böyük günəşin kölgəsində -*
*Doğma Altay, doğma xalqı*
*Sərbəst və şən yaşayır.*
*Onun* (Kögüdey-Mergenin – G.C.) *atası və anası birlikdə*
*Özlərinin daş ailində* (burada: öz xan sarayında – G.C.)
*mehriban və şənlik, sevinc içində oturmuşlar,*
*Onların üzləri aydın və işıqlıdır...*".

Oyandıqda gördüklərinin sadəcə bir yuxu, xülya olduğunun acı gerçəkliyinə varan Kögüdey-Mərgən içindəki açını-sızını gizlədə bilməyərək dağları lərzəyə gətirən nərəli hayqırışla ağlamağa başlayır. Yuxu və gerçəkliyinin qatı ziddiyyəti qəhrəmanı o dərəcə də məyus edir ki, avantyur (sərgüzəşt) xronotopunun tərtiblənmə qaydalarına uyğun olaraq, hiperbolik təsvirə yol verilir: bu qəlb sərzənişinin, ürək çırpıntısının, hıçqırıqlı ağlartının səsi-sədası uzaqlara gedib çatır. Bağırtı ilə ağlayan Kögüdey-Mərgənin yanğılı səsləri, hıçqırıqları uzaq Erlik məkanına qədər gedib çatır və yeraltı dünya hökmdarını da təşvişə salır.

Bilavasitə qroteks-yuxu motivli yuxu xronotoplu reallaşmasına təsadüf edilməsə də, qroteksə işarə edən, onun ehtimali mövcudluğuna eyham vuran məqama təsadüf edirik. Belə ki, Kögüdey-Mərgənin Tastarakaya çevrilişindən sonra onun bədənindəki doğuş xalını görən valideynlərinin sitəm dolu acı gözyaşlarını görən qəhrəman (Kögüdey-Mərgən) bu ağrı-acının səbəbini soruşduqda, ata-anası ona övladlarının itkisinin iztirabını yaşadıqlarını açıqlamırlar, bunun əvəzinə qrotesk-yuxu motivli əsaslandırma ilə situasiyanı, bir növ tərsinə çevirirlər: Maaday-Qara və onun xanımı Altın-Tarqa Tastarakayın (yəni, çevrilmə yaşamış Kögüdey-Mərgənin) yuxuda ikən yalnışlığa vardığını, sevinci sitəm-kədər, gülüşü isə hiçqırtı, ağlama kimi sezdiyini dilə gətirməklə öz dərdlərini gizlətməyə çalışırlar. Əgər nəzərə alsaq ki, bədii qroteksin əsas fərqləndirici, təsbitedici meyarlarından biri, məhz fantastik, irreal olanla gerçək olanın, gözəlliklə eybəcərliyin, faicə ilə komizmin qarşılaşdırması və ya uyumuna əsaslanan xüsusi korrelyasiyanın təzahür tapmasına istinad edir və eləcə də onu da nəzərə alsaq ki, qrotesk bir çox halda çevrilmələrlə, qeyri-adi situasiyalarda normadan kənaraçıxmalarla müşayət olunur, o zaman təqdim olunan "Maaday-Qara" dastanından iqtibasdakı situasiyanın, məhz, qroteskvari-yuxu motivinə yaxın zaman-məkan kontiniumunu səciyyələndirdiyi yəqinləşəcəkdi. Belə ki, bu məqamda həm çevrilmə, həm ziddiyyət (özü də bir-birini qəti inkar edən situasiya və durumların qarşılaşdırması), həm də həmin zoddiyyətlərin bir zaman-məkan kontiniumuna sığdırılması yer alır.

Qədim insan üçün imitativ magiyanın səciyyəviliyini önə sürmüş K.Levi-Stross da erkən mərhələdə müəyyən heyvanları qida kimi istifadə edilməkdə onların xüsusiyyətlərini mənimsəmək istəyinin dayandığını demişdi. O da qədim insanın özünü (canlı saydığı) təbiətin bir parçası hesab etməklə, müəyyən totemik kodlardan çıxış etdiyini də dilə gətirmişdi (Levi-Strauss, 1955: 430). Bu baxımdan ana südü ilə Qazılıq dağının gülü-çiçəyinin eyni dərəcəli müalicəvi əhəmiyyətə malik olması fikrinin yer alması "Kitabi-Dədə Qorqud"un epos təfəkküründə erkən təfəkkür elementlərinin rudiment (qalıq) izlərin kimi dəyərləndirilə bilər. Başqa sözlə desək, ananın körpəsinə yaşam verən misilsiz ana südü ilə müəyyən mənada personifikasiyaya uğramış (yəni, şəxsləndirilmiş, canlı varlıq kimi nəzərdən keçirilən) Qazılıq dağının çiçəkləri ilə eyni dərəcədə həyati əhəmiyyət kəsb edir: liminallıq məkanında (ölüm – dirim sərhəddində, o dünyaya keçid məqamında) olan şəxsin dirilməsini təmin edən mistik, möcücəvi məlhəm komponenti kimi mistifikasiyaya uğrayır. Yeri gəlmişkən onu da qeyd edək ki, T.Hacıyev bu məqamı şamanizm elementi kimi səciyyələndirmiş və bunun Xızırın ayağına yazıldığını (ifadə T.Hacıyevə məxsusdur. – G.C.) iddia etmişdi (Hacıyev, 1976: 61). Göründüyü kimi, bu dəyərləndirməsi ilə alim Xızır kultunun və şamanizm inanclarının kontaminasiyasının uyarlı olmaması mövqeyindən çıxış etmiş və dolayısı ilə, həmin əlaqələndirmənin daha sonra gerçəkləşdirilərək şamanizmin rudimentlərinin aradan qaldırılmasına xidmət etməsi mövqeyini ortaya qoymuşdur.

Türk mifologiyasında dağ kultunu araşdırmış F.Bayat Altay və yakut türklərinin mifologiyasında dağın real dünya ilə o biri dünya arasında keçid məkanı, sakral güc mərkəzi olduğuna diqqət çəkmişdi (Bayat, 2006: 50).

Tədqiqatçılar dağ kultunun təkcə türklər üçün deyil, eləcə də Uzaq Şərq xalqları üçün səciyyəvi olduğunu qeyd edir və bu xalqlarda konkret dağ adlarının, bir növ qorxmazlıq, mərhəmət, böyüklük, güc ölçü meyarı kimi, səciyyələndirmə vahidi kimi nəzərdən keçirildiyini vurğulayırlar. Analoji olaraq qeyd etmək olar ki, övladını dağa sığındıran Maaday-Qara da oğlunun gələcəkdə Altay dağı kimi güclü, dözümlü, məğrur olacağı arzusundan çıxış edir ki, bu da bir daha partisipasiya prinsipinin reallaşmasından xəbər verir. Maaday-Qaranın dastan mətnindəki ən birinci təqdimatında da, məhz dağla bənzətmə əsaslı məcazlaşmaya yer verilir. (xatırladaq ki, ilk təqdimat mətnin təhkiyə formatı baxımından ən böyük əhəmiyyət kəsb edən və oxucunun/dinləyicinin təxəyyülündə obraz haqqında ilkin təsəvvür qəlibini yaradan həlledici səciyyələndirmədir).

Yeri gəlmişkən onu qeyd edək ki, biz burada da xronotopların bir-birinə asanlıqla keçid etdiyini və eləcə də kəsişərək əlaqəlilik yaratdığını müşahidə edirik: Kögüdey-Megenin Tastarakaya dönüşməsi sayəsində oratay çıxan Çevrilmə xronotopu çərçivəsində qroteks-yuxu imitasiyalı motivin (xronotopik motivin) yer alması sayəsində, real olanla irreal olanın çox mürəkkəb, qatma-qarışıq birgəmövcudluğunun və təzadının (eyni zaman-məkan kontiniumu çərçivəsindəki) uyumunu izləyirik. Zatən Kögüdey-Mergenin Tastarakaya çevrilməsinin özü bir qrotesklik situasiyanı ərsəyə çıxardığından, haqqında bəhs etdiyimiz süjet fabulası mahiyyət etibarı ilə qeyri-adilik, qeyri-normativlik, standartdan, normadan kənaraçıxmanı ehtiva edən qrotesklik motivi çuğlaşmışdır (Qroteskin bu kimi xüsusiyyətləri ilə daha ətraflı bax:). Deməli, həm çevrilmə xronotopu, həm də yuxu imitasiyası süjetin qeyri-adiliyini, təzadlılıq üzərində nəşət tapan xüsusi təhkiyə formatını təmin edir.

Bu mənada türk xalqlarının epos yardıcılığında yuxu və yuxuların önəmli yer tutduğunu vurğulayan və onların bilavasitə şüuraltı hissiyyat və intuitiv sezgiləri, emosional biriktirmələri əks etdirdiyini qeyd edən K.V.Nərimanoğlunun fikirləri maraq doğurmaya bilməz. Belə ki, tədqiqatçı yuxuyozmaların həmin dastan ədəbiyyatını ərsəyə gətirmiş xalqın psixologiyası, tarixi keçmişindən əxz etdirdiyi təcrübə yaddaşı, mentaliteti ilə sıx bağlı olduğunu dilə gətirməklə bərabər, yuxuların psixoloji mahiyyətinə vararaq, dastan ədəbiyyatında yer alan yuxu motivlərinin bilvasitə şüuraltında qərarlaşan, lakin aşkar şəkildə dilə gətirilməyən dəyərlər sisteminin belə bir qeyri-adi formatdakı reprezentasiyası (təqdimatı) olduğunu da önə sürmüşdü. Maraqlıdır ki, K.V.Nərimanoğlu yuxuları və yuxuyozmaları ilkin, primitiv mif təcrübəsi səviyyəsində nəzərdən keçirməklə, onlarda erkən dünyaduyumu elementlərinin, sezgilərinin yer aldığını da qeyd etmişdi (Nərimanoğlu). Başqa sözlə desək, "Kitabi-Dədə Qorqud" araşdırmaçısı dastan mətnindəki yuxuların, yuxuyozmaların heç də təsadüfi olmadığını vurğulamışdır: yəni, yuxular və yuxuyozmalar həm müəyyən süjet qanunauyğunluqları əsasında meydana gəlmişdi, həm də eyni zamanda həmin epos təfəkkürünü törəmiş milli metallığın ibtidai formatlı təzahür elementi kimi ortaya çıxmışdır. Məsələn, milli mentallığın təzahür elementi kimi, maraq doğuran məqamlardan biri "Qazılıq qoca oğlu Yeynək boyu"nda dayı obrazının yararsızlığını, bacı oğlunun aqibətinə etinasızlığını ifşa edən yuxu xronotopu öz implisit məna yükündə matriarxatdan patriarxata keçid dönəmində daha öncəki quruluşun rudiment izlərinin, bir növ gözdən salınmasına, dəyərsizləşdirilməsinə xidmət edir.

Ümumən, bu bölüm çərçivəsində aparılan təhlillər onu deməyə imkan verir ki, yuxu xronotopu xronotopik matrisa tələblərinə uyğun şəkildə tərtiblənməklə obraz/detal–motiv–xronotop iyerarxiyasını ərsəyə gətirir. Nəticədə müəyyən simvollar, obrazların (yuxuda görünən simvol, bədən xalı və s.) motivləndirilməsi sayəsində yuxu, öncəgörmə mahiyyətli xronotop ərsəyə gəlir.

## ƏDƏBİYYAT

1.Əliyev, R. (2021). Yuxu və mif // Dədə Qorqud, № 3, s.56-64

2.Qafarlı, R. (2011). Azərbaycan-türk mifologiyası (qaynaqları, təsnifatı, obrazları, genezisi, evolyusiyası və poetikası), Bakı, ADPU-nun nəşri, 438 s.

3.Lévi-Strauss, Claude (1955). The Structural study of myth // Journal of American Folklore. 68 (270): 428–444.
4.Bayat, F. (2006). Türk Mitolojisinde Dağ Kultu // Folklor/Edebiyat, 2006, cilt: 2, Sayı № 46, s. 47-60
5.Nərimanoğlu, K.V. Yuxu və yuxuyozma // "Kitabi-Dədə Qorqud" ensiklopediyası, http://dede.musigi-dunya.az/y/yuxu.html
6.Hacıyev, T. (1976). Azərbaycan ədəbi dili tarixi, Bakı: ADU nəşri, 155 s.

**** Filologiya üzrə fəlsəfə doktoru, dosent***
***AMEA Folklor İnstitutunun böyük elmi işçisi***
***E-mail:jannatova2021@gmail.com***

**Gunel Jannatova**

## THE NARRATIVE-FORMING ROLE OF THE DREAM CHRONOTOPE IN HEROIC EPIC

This article explores the narrative-forming role of the dream chronotope in Turkic heroic epics within the framework of chronotopic theory. The dream is analyzed not merely as a narrative episode, but as a multilayered symbolic space reflecting the hero's inner transformation, subconscious experiences, and the mytho-psychological memory of the collective. Through the analysis of classical epics such as *The Book of Dede Korkut*, *Maaday-Kara*, and *Alpamish*, the study identifies various subtypes of dream chronotopes: nightmare, wish-fulfillment, warning, prophecy, and grotesque dreams. The relationship between the dream and concepts such as metamorphosis, liminality, grotesque narration, and the principle of participation is thoroughly discussed. The paper highlights how dreams operate as carriers of archetypal meanings, expressing ancient thought patterns, shamanistic rituals, and elements of totemic worldview. Ultimately, the dream chronotope is interpreted as both a poetic and ideological construct that encapsulates the collective mentality and cultural identity of the Turkic peoples.

**Keywords:** *dream chronotope, heroic epic, mythological structures, transformation motif, subconscious symbolism*

**Гюнель Джаннатова**

## ФОРМИРУЮЩАЯ РОЛЬ ХРОНОТОПА СНА В ГЕРОИЧЕСКОМ ЭПОСЕ

В данной статье анализируется роль хроноптопа сна в формировании повествовательной структуры героического эпоса с точки зрения хронотопической теории. Сон представлен не просто как эпизод, а как многослойное художественное пространство, отражающее внутреннюю трансформацию героя, его подсознательные переживания и связь с коллективной мифологической памятью. На основе анализа таких эпических произведений, как «Книга Деде Коркуд», «Маадай-Кара», «Алпамыш», выделяются подтипы онейрических хронотопов — сон-страшный сон, сон-желание, сон-предостережение, сон-пророчество, сон-гротеск.

Отмечается связь между сном и такими понятиями, как превращение, лиминальность, участие, мифологическая инициация. Особое внимание уделяется символике сновидений, мотивам трансформации и роли сна как архаической формы мышления, связанной с тотемизмом, шаманизмом и психоментальной памятью народа. Работа подчеркивает, что хронотоп сна является неотъемлемым элементом поэтики героического эпоса и отражает ментальную модель этноса.

**Ключевые слова:** *хронотоп сна, героический эпос, мифологические структуры, мотив превращения, подсознательное мышление*

*Akademik Muxtar İmanov tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 02.10.2025**
**Son daxilolma tarixi:14.11.2025**